www.kaspi.az 4 iyul 2015



■ **Tofiq Fikrət**
*Türkiyə*

## MAHNIYA SÖZ

Artıq yetişmiş zaman, bəsdir, qalxın ayağa,
Qoy hər kəs öz yolunu işıqlandırsın daha.
Pisliyə, haqsızlığa ədalət qalib gələr,
Yol verin azadlığa, gələn nurlu sabaha.

Təhqirə, əsarətə biz daha dözdük, yetər!
Ədalət məşəlindən qoy işıq alsın bəşər!
Qoy gələcək həqiqət nurlatsın təkcə bizi,
İztirabın, təhqirin tüstü tək itisin izi.

Pisliyə, haqsızlığa bir daha yol verməyək!
Biz əbədi sevincə qərq edək qəlbimizi.
Zülməti, əsarəti sökün, dağıdın, yetər!
Məhəbbət məşəlindən qoy işıq alsın bəşər!